**Gülnisə Ə. MUSTAFAYEVA i.ü.f.d.dos.**
Qərbi Kaspi Universiteti

**Fidan Sehran qızı QASIMOVA**
Qərbi Kaspi Universitetinin Magistrantı
**E-mail:** fidan.gasim.24@gmail.com

# KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINDA ƏSAS TRENDLƏR

**Xülasə**

Kiçik və orta sahibkarlar ölkə inkişafında yer tutmaqla yanaşı iş yerlərinin artmasında və sosial rifahın yüksəlməsinə mühüm şərait yaratmaqdadırlar. Bu məqalənin isə məhz sahibkarlığın Azərbaycan iqtisadiyyatındakı rolunu və əhəmiyyətini ortaya çıxarmaqda, KOB-ların inkişafındakı əsas tendensiyaları araşdırmaqda və bu tendensiyaların müəssisələrin strategiyalarını necə formalaşdırdığını izləməkdə köməklik göstərəcəyi düşünülməkdədir. Tədqiqat zamanı sistemli yanaşma və müqayisəli təhlil metodlarından istifadə edilmişdir.

**Açar sözlər:** sahibkarlıq, kiçik sahibkarlıq, orta sahibkarlıq, KOB, sahibkarlıqda tendensiyalar

**UOT:** 338.
**JEL:** O32.
**DOI:** https://doi.org/ 10.54414/ KWCK2959

**Giriş**

R. Cantillon tərəfindən elmə gətirilən sahibkarlıq anlayışının əsas xüsusiyyətləri uzaqgörənlik və risk olsa da, burada əsas amil onun yalnız istehsalatla məhdudlaşdırılmamasıdır [4, s. 116]. Bu səbəbdəndir ki, sahibkarlıq subyektləri olan kiçik və orta sahibkarlıq (KOB) dünya iqtisadiyyatında bu anlayışın əsas struktur bloklarını təşkil edən və məşğulluğu təmin edən mühüm amillərdəndir. Qlobal iqtisadiyyatın sürətlə dəyişən dinamikası KOB-ların rəqabət qabiliyyətini və davamlılığını təmin etmək üçün yeni strategiyalar hazırlamağı zəruri etməkdədir.

**Sahibkarlıq anlayışı**

“Sahibkarlıq” (entrepreneur) sözü ilk dəfə Dictionnaire Universel de Commerce lüğətində Jacques des Brusions tərəfindən qeydə alınıb”. Sahibkarlıq, yeni bir fikrin planlaşdırılması, başlatılması və icra olunması prosesidir. Bu fəaliyyəti ortaya qoyan və idarə edən şəxslər sahibkar adlanır. Sahibkarlığın məqsədi isə, zamanın tələblərinə uyğun olaraq, insanların həyat şəraitini daha da yüngülləşdirəcək və yaşam səviyyəsini yüksəldəcək məhsulları, xidmətləri, imkanları bazara təqdim etməkdir [3]. Elmi bir anlayış olaraq isə, "sahibkarlıq" termini məşhur ingilis iqtisadçı R. Cantillon tərəfindən yazılan əsərlərdə meydana çıxmışdır. Sahibkarlığın ilkin konsepsiyasını ortaya qoyan Cantillona görə, "sahibkar" malı müəyyən bir qiymətə alıb, naməlum bir qiymətə sataraq riskli şəraitdə fəaliyyət göstərən insandır. O, sahibkarlığın dəqiq tərifini verərək, bu peşənin əsas xüsusiyyətlərinin uzaqgörənlik və risk etmə olduğunu vurğulamışdır. Onun fikrinə görə, sahibkarlar fəaliyyətlərini yalnız istehsalatla məhdudlaşdıra bilməzlər [4].

Azərbaycanda sahibkarlıq geniş bir inkişaf mərhələsindən keçmiş və günümüzdə də inkişafını davam etdirməkdədir. XIX əsrdə ölkəmizdə neft hasilatı sahəsində fəaliyyət göstərən milyonçu sahibkarlar, ölkənin iqtisadiyyatına böyük dəstək verərək əhəmiyyətli işlərə imza atıblar. Xarici iş adamlarının ölkəmizə olan marağı və xarici sərmayələrin cəlb olunması, sahibkarlıq fəaliyyətinin sürətlə inkişaf etməsinə səbəb olmuşdur [6].

Ölkəmizdə sahibkarlıq iki şəkildə həyata keçirilə bilməkdədir: fərdi və ortaq. “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 dekabr 2018-ci il tarixli və 556 nömrəli Qərarı ilə “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları” təsdiq edilmişdir. Sahibkarlıq subyektlərinin mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid edilməsi meyarları

onların işçilərinin siyahı sayı və illik gəliri əsasında müəyyən olunur" [13, s.55-70].

**Cədvəl 1**

**Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları**

| Sahibkarlıq subyektlərinin ölçüsünə görə kateqoriyaları | İşçilərinin orta siyahı sayı (nəfər) | İllik gəliri (ig) (min manat) |
|---|---|---|
| mikro sahibkar | 1-10 | ig ≤ 200 |
| kiçik sahibkar | 11-50 | 200 < ig ≤ 3 000 |
| orta sahibkar | 51-250 | 3 000 < ig ≤ 30 000 |
| iri sahibkar | 251 və ondan yuxarı | 30 000 < ig |

***Mənbə:*** *AR NK № 556, 2018.*

**Kiçik və orta sahibkarlığın inkişafına təsir göstərən amillər**

Müasir dövrümüzdə vətəndaşların sahibkarlığa marağını artıran bir sıra amillər mövcuddur. Bunlara innovasiya və texnologiyaların inkişafı, daim yenilənən standartlara uyğunlaşma qabiliyyəti, istehlakçı tələblərinə daha operativ və dəqiq cavab vermə, müştəri ehtiyaclarını nəzərə alma, dövlət dəstəyi, eləcə də təhsil və təlim imkanlarını daxil etmək mümkündür [3].

1. Maliyyə, investisiya və dövlət dəstəyi

Fransa da istehsal firmaları üzərində həyata keçirilmiş tədqiqatlar göstərir ki, maliyyə məhdudiyyətləri sahibkarlıq təşəbbüslərinin azalmasına səbəb olmaqdadır [16]. İqtisadiyyatda mövcud olan mənfi faktorlar və ya gözləntilər sahibkarlıq fəaliyyətinə birbaşa təsir göstərə bilməkdədir.

2. İnnovasiya və texnologiya

Müasir texnologiyaların çatışmazlığı və yenilənmənin olmaması isə sahibkarlıq fəaliyyətinin uzunmüddətli davamlılığını çətinləşdirməkdədir. Bu səbəbdən daim dəyişən standartlara uyğunlaşmaq, eləcə də istehlakçı tələblərinə daha operativ və dəqiq cavab vermək isə sahibkarlıq sahəsində mühüm əhəmiyyət daşımaqdadır [15, s. 249-266].

3. Dayanıqlılıq və ətraf mühit faktorları

Qlobal istiləşmə və ətraf mühitin çirklənməsi kimi bir sıra problemlər getdikcə daha çox təhlükəyə çevrilməyə, bu isə KOB-ları dayanıqlılıq mövzusunda daha da həssas davranmağa məcbur etməkdədir. Beləliklə, bu vəziyyət KOB-ları ekoloji cəhətdən təmiz istehsal üsullarından istifadə, enerji sərfiyyatında qənaət və tullantıların idarə edilməsi kimi məsələlərdə innovativ həllər hazırlamağa istiqamətləndirməkdədir [19, s. 91-117].

4. Yerli istehsalın gücləndirilməsi və təchizat zəncirlərinin qısaldılması

KOB-lar özlərini qlobal qeyri-müəyyənliklər və təhlükələrdən qorumaq, daha sürətli xidmət göstərmək, eləcə də ölkə əhəmiyyətli biznesləri dəstəkləmək üçün yerli təchizatçılara və istehsalçılara müraciət etməkdə və onlara üstünlük verməkdədirlər [9].

5. İstehlakçı tələbi faktorları

Digər bir araşdırma göstərir ki, İspaniya firmaları müştəri tələblərini nəzərə almadan yalnız məhsul çeşidini artırmaq məqsədilə bir neçə dəyişikliklər etdikdə, uğursuzluqlarla qarşılaşmışlar [12, s.155-176].

6. Psixoloji amillər

KOB-ların inkişafına təsir edən bir digər tendensiya da psixoloji amillərdir. Sahibkarların izlədiyi psixoloji yol onun biznesinin inkişafına birbaşa təsir göstərməklə qalmayıb, bu biznesin formalaşdırılmasında ən təməl rolunu oynamaqdadır [20].

**Müasir iqtisadi şəraitdə biznes strukturları arasında qarşılıqlı əlaqə sisteminin inkişafı və müasir trendlər**

Bizneslərin strukturu ümumiyyətlə onların məqsədlərinə çatması üçün həyata keçirilməli olan bütün fəaliyyətlərin məcmusu kimi başa düşülür. O, qruplaşmanı, vəzifələr arasında əlaqələri, səlahiyyətlərin verilməsini, biznes mühitində məlumatın şaquli və üfüqi axınını göstərməkdədir [2].

Tarixi inkişaf aspektindən məsələyə baxdıqda iqtisadiyyatın biznes strukturlarının özü və onlar

arasında qarşılıqlı əlaqəni daha aydın görmək mümkündür. Onlar tarixin müxtəlif dövrlərində fərqli formalarda inkişaf edərək, bugün həm qlobal, həm də yerli bazarlarda mühüm rol oynayırlar.

1. Əmək bölgüsü və ilkin biznes münasibətləri

Biznes strukturlarının formalaşmasının ilkin dövrləri əmək bölgüsü ilə bağlıdır. Belə ki, ilk insanlararası münasibətlərin təməlində məhz bu əlaqələri görmək mümkündür. Adam Smithin [17] "Millətlərin Sərvəti" əsərində qeyd etdiyi kimi, əmək bölgüsü iqtisadi inkişafın əsas mexanizmalarından biri hesab edilməkdədir.

Bu ilkin dövrlərdə biznes strukturları arasındakı qarşılıqlı əlaqələr və münasibətlər əsasən ticarət və bazar münasibətləri ilə məhdudlaşmaqda idi.

2. Sənaye İnqilabı və korporativ strukturların formalaşması

Sənaye İnqilabı dövrü bir çox yenilikləri gətirməsi ilə birlikdə biznes strukturlarının da şaxələnməsinə səbəb olmuşdur. Bu dövrdə korporasiyalar və holdinqlər kimi iri müəssisələr meydana gəlmiş və onlar arasında tədarük zəncirləri və strateji tərəfdaşlıqlar qurulmuşdur. Alfred Chandlerin [5] "The Visible Hand" kitabında qeyd etdiyi kimi, menecerlər biznes əlaqələrinin tənzimlənməsində əsas fiqura çevrilmişdir.

3. Qloballaşma və beynəlxalq biznes əlaqələrinin daha da güclənməsi

XX əsrdə qloballaşmanın getdikcə sürətlənməsi ilə biznes strukturları arasında əlaqələr daha mürəkkəb və genişmiqyaslı hala gəlmişdir. Beynəlxalq biznes imkanlarının genişlənməsi, texnologiyanın inkişafı bu dövrə təsadüf etmişdir [7, s. 78-104].

4. Biznesdə müasir dövrün trendləri

Rəqəmsal inqilabın gətirdiyi yeniliklər və texnologiyalar ölkəmizdə də biznes strukturlarının qarşılıqlı əlaqələrini transformasiya edərək daha da inkişaf etdirmişdir. Müasir iqtisadi şərait biznes əlaqələrini inkişafını aşağıdakı aspektlərdən təhlil etməkdədir:

- Rəqəmsal platformalar və ekosistemlər
- Blokçeynlər və kriptovalyutalar
- Süni intellektin yaradılması və avtomatlaşma

Müasir iqtisadi şəraitdə biznes strukturları arasında qarşılıqlı əlaqə sisteminin inkişafı, iqtisadiyyatın dinamikliyinin yüksəlməsinə və rəqabət qabiliyyətinin artmasına təsir edən mühüm amillərdən biridir. Bu qarşılıqlı əlaqələrin qeyd edilən tarixi inkişafını dərindən araşdırmaq, imkan verir ki, mövcud iqtisadi modellər və əməkdaşlıq formaları daha da yaxşı başa düşülsün, təkmilləşdirilsin və texnoloji irəliləyişlərə təkan versin.

**Nəticə**

Məqalədə araşdırılan tendensiyalar göstərmişdir ki, kiçik və orta sahibkarlıq, innovasiya, texnoloji inkişafla, maliyyə dəstəyi, dayanıqlılıq və müştəri tələblərinə cavab verməklə sıx bağlılığı olan məsələdir. KOB-ların inkişafı, ölkəmizdə iqtisadiyyatın şaxələnməsi və sosial rifahın inkişafı üçün böyük əhəmiyyət kəsb etməkdədir. Bu sahədə ölkəmizdə aparılan islahatlar və həyata keçirilən yeni strategiyalar, sahibkaralara daha güclü bir iqtisadi mühit yaratmaqda və beynəlxalq bazara çıxmaqda fürsət verməkdədir. Gələcəkdə KOB-ların qarşılaşacağı çətinlikləri daha rahat aşmaq üçün müasir texnologiyanın və innovativ resurslara çıxışın təmin edilməsi, həmçinin bazar tələblərinə uyğunlaşma qabiliyyəti ən vacib amillərdən biri olaraq qalacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. Bakı. 21 dekabr 2018-ci il tarixli № 556. (“Xalq” qəzeti 17 may 2020-ci il, № 96, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 5, maddə 645);

**2.** Aydemir, N., 1991. *İşletmelerde strateji-yapı ilişkisi ve buna ilişkin bir uygulama.* Doktora tezi. İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü, İstanbul;

**3.** Bayramova, Ü., 2019. *“Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsində qadın sahibkarlığın rolu: Bakı nümunəsində”* magistr dissertasiyası. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı;

**4.** Башарина, С. М., 2009. Учебное пособие по дисциплине «Экономика малого и среднего предпринимательства» / С.М. Башарина, Н.В. Моргунова, Н. М. Филимонова; Владим. гос. ун-т. Владимир: Изд-во Владим. гос. ун-та. 116 с;

**5.** Chandler, A. D., 1977. *The Visible Hand: The Managerial Revolution in American Business*. Cambridge, MA: Harvard University Press;

**6.** Əhmədov, M., 2009. Azərbaycan iqtisadiyyatının inkişafı və sahibkarlığın rolu. Bakı: Qafqaz Nəşriyyatı;

**7.** Gereffi, G., Humphrey, J., & Sturgeon, T., 2005. "The Governance of Global Value Chains." Review of International Political Economy, 12(1), 78-104;

**8.** Hatch, M. J., 1997. Organization theory. Oxford University Press;

**9.** Kaya, M. 2024. Yerel Üretim ve Küresel Tedarik Zincirleri. Ankara: Girişimcilik Yayınları;

**10.** Martineza, M.G.; Brizb, J., 2000. "Innovation in the Spanish Food & Drink Industry", International Food and Agribusiness Management Review, 3:155– 176;

**11.** Nəriman, T. N., 2019. Kiçik sahibkarlığın Azərbaycan iqtisadiyyatında rolu. *UNEC Elmi Xəbərləri*, İl 7, Cild 7, səh. 55 – 70;

**12.** Roberts, E. B., 1968. Entrepreneurship and Technology: A basic study of innovators; how to keep and capitalize on their talents. *Research Management*, *11*(4),249–266. https://doi.org/10.1080/00345334.1968.11755911;

**13.** Savignac, F., 2005. "The Impact of Financial Constraints on Innovation:Evidence from French Manufacturing Firms", Université Panthéon-Sorbonne (Paris 1, Cahiers de la Maison des Sciences Economiques, v06042;

**14.** Smith, A., 1776. ***An Inquiry into the Nature and Causes of the Wealth of Nations***. London: W. Strahan and T. Cadell;

**15.** Tüyen, Z., 2020. İşletmelerde sürdürülebilirlik kavramı ve sürdürülebilirliği etkileyen etmenler. *İstanbul Ticaret Üniversitesi Sosyal Bilimler Dergisi*, 19(37), 91-117;

**16.** Özyılmaz, A. M., 2016. ***Türkiye'de kadın girişimciliği ve girişimci kadınların karşılaştıkları sorunlar üzerine bir araştırma*** (Yüksek Lisans Tezi). Nevşehir Hacı Bektaş Veli Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Sosyoloji Anabilim Dalı, Nevşehir;

**Гюльниса А. МУСТАФАЕВА**, к.э.н., доцент
Западно-Каспийский университет

**Фидан Сехран кызы ГАСЫМОВА**
Магистрант Западно-Каспийского университета
E-mail: fidan.gasim.24@gmail.com

## ОСНОВНЫЕ ТЕНДЕНЦИИ В РАЗВИТИИ МАЛОГО И СРЕДНЕГО ПРЕДПРИНИМАТЕЛЬСТВА

**Резюме**

Малые и средние предприятия (МСП) играют важную роль не только в развитии страны, но и в создании рабочих мест, а также в улучшении социального благосостояния. Цель данной статьи — выявить роль и значение предпринимательства в экономике Азербайджана, исследовать основные тенденции развития МСП и проанализировать, как эти тенденции влияют на формирование стратегий предприятий. В ходе исследования использовались системный подход и методы сравнительного анализа.

**Ключевые слова:** предпринимательство, малый бизнес, средний бизнес, МСП, тенденции в предпринимательстве.

**Gulnisa A. MUSTAFAYEVA**,

Ph.D. in Economics, Associate Professor
Western Caspian University

**Fidan Sehran qizi GASIMOVA**
Master's Student, Western Caspian University
E-mail: fidan.gasim.24@gmail.com

**MAIN TRENDS IN THE DEVELOPMENT OF SMALL AND MEDIUM-SIZED ENTREPRENEURSHIP**

**Summary**

Small and medium-sized enterprises (SMEs) not only play a crucial role in the development of the country, but also significantly contribute to job creation and the improvement of social welfare. This article aims to highlight the role and importance of entrepreneurship in Azerbaijan's economy, explore the key trends in the development of SMEs, and examine how these trends shape the strategies of enterprises. The research utilizes a systematic approach and comparative analysis methods.

**Keywords:** entrepreneurship, small business, medium-sized business, SMEs, trends in entrepreneurship.